Azərbaycan son illərdə bir çox beynəlxalq tədbirlərin böyük uğurla keçirildiyi sülh məkanına çevrilib. Ölkəmiz 2016-cı ildən Formula-1 yarışlarına da peşəkarlıqla evsahibliyi edir. 2020-ci ildə koronavirus pandemiyasının yayılması ilə əlaqədar Bakıda yarışlar təxirə salınsa da, bu il pandemiyanın sürətinin zəifləməsi yarışların keçirilməsinə imkan verdi. Odur ki, son vaxtlar Formula-1 yarışlarının təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin ciddi çalışmaları nəticəsində yürüş uğurla başa çatdırıldı.






# Bakıda növbəti Formula-1 yarışı maraqlı keçdi və uğurla yekunlaşdı

**"Williams" komandasının baş mühəndisi Deyv Robson Bakı treki ilə bağlı fikirlərini belə ifadə etdi:**

– 2019-cu ildə Bakıda keçirilmiş yürüşlərdə iştirak etmişəm. Yenidən Bakı küçələrinə qayıtmaq çox xoşdur. Bu trasda pilotlar da, mühəndislər də bolidin sazlanması ilə bağlı unikal məsələləri həll etməli olurlar. Bundan başqa, burada uzun məsafəli düz yol və ötmə əməliyyatını yerinə yetirmək üçün imkanlar var. İçərişəhər yaxınlığında ensiz hissə, necə deyərlər, Bakı trekinin vizit kartıdır. Bununla belə, hər sektorun özəlliyi var. Yolun konfiqurasiyası bütün 6 kilometrlik distansiya boyunca bolidin daha effektli olması üçün onun sazlanması üzrə işləri mürəkkəbləşdirir.

Ümumilikdə, Formula-1 təqvimində Bakının özünəməxsus yeri olan bənzərsiz treki var. Bu, çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. İkinci sektor aşağı sürətlə hərəkət etməli olduğumuz çoxlu sayda döngələrdən ibarətdir. Həmin döngələrdəki orta sürət Monako trekində olduğundan da aşağıdır. Burada sıxılan güclə sürət arasında uyğunlaşmanı dəqiq tapmaq çətindir.

Bu baxımdan, Bakı treki həm maraqlı, həm də özünəməxsus çətinliyi olan yürüşdür. Qeyd etməliyəm ki, yarış kifayət qədər maraqlı keçdi və uğurla başa çatdı. Qalibi təbrik etdik.

Üstəlik, Bakıda olduğumuz müddətdə paytaxt şəhərinizdə aparılan quruculuq, abadlıq işləri ilə də tanışlıq imkanımız oldu. Bakının gözəlliyinə, onun zahiri görkəmində tarixiliklə müasirliyin qovuşmasına heyran qalmamaq mümkün deyil. İçərişəhərlə tanışlıqdan xüsusi zövq aldıq. Azərbaycan xalqının mehribanlığı və qonaqsevərliyi isə uzun müddət yadımızdan çıxmayacaq.

***Söhbəti yazdı: Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 iyun.- S.3.